# ANTİTERROR ŞƏHİDLƏRİ - VƏTƏNİ BÜTÖV EDƏNLƏR

## ABBASOV RUSLAN ƏBİLFƏT OĞLU



Şəhid baş leytenant Ruslan Əbilfət oğlu Abbasov 4 sentyabr 1995-ci ildə Mingəçevir şəhərində anadan olmuşdur. 2002-ci ildə orta təhsilinə başlamışdır. 2010-cu ildə 8-ci sinifi bitirdikdən sonra təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə davam etdirmişdir. 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. 2017-ci ildə ali təhsilini başa vurmuş, Azərbaycan Silahlı Qüvvələri sıralarında leytenant rütbəsi və taqım komandiri vəzifəsi ilə xidməti fəaliyyətinə başlamışdır. 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmişdir. 2020-ci ilin yayında baş leytenant rütbəsinə yüksələn Ruslan Abbasov "N" saylı hərbi hissədə bölük komandiri vəzifəsində çalışmışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan Ruslan Abbasov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Xocavəndin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 30 oktyabr 2020-ci ildə döyüşlər zamanı anasını itirsə də Ruslan sadəcə bir gün döyüş meydanını tərk edir. Anasını torpağa tapşırdıqdan sonra yenidən döyüşlərə qayıdır. 10 noyabr 2020-ci ildə Vətən müharibəsi şanlı qələbəmizlə tamamlandıqdan sonra baş leytenant Ruslan Abbasov cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", Müdafiə Nazirliyi rəhbərliyi tərəfindən "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. O, müharibədən sonra da hərbi xidmətini davam etdirmişdir.

Cəsur baş leytenant Ruslan Abbasov 19 sentyabr 2023-cü ildə Qarabağda silahlanan erməni separatçılarına qarşı rəşadətli Azərbaycan Ordusu tərəfindən başlanan lokal xarakterli antiterror əməliyyatlarında böyük igidlik göstərərək döyüşmüşdür. Qızğın döyüşlərin getdiyi zaman separatçıların bir çox mövqeyini böyük ustalıqla məhv etmişdir. Ruslan Abbasov 19 sentyabr 2023-cü ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Nəşi 20 sentyabr 2023-cü ildə Mingəçevir Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Ruslan Abbasov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## ABBASOV ZAMİN XAQANİ OĞLU



Şəhid baş leytenant Zamin Xaqani oğlu Abbasov 8 mart 1993-cü ildə Qubadlı şəhərində anadan olmuşdur. 31 avqust 1993-cü ildə Qubadlı rayonunun erməni qəsbkarları tərəfindən işğal olunmasına görə hələ 5 aylıq ikən ailəsi ilə birgə məcburi köçkün kimi Sumqayıt şəhərində müvəqqəti məskunlaşmışdır. 2000-2008-ci illərdə Mehman Ağayarov adına Qubadlı rayon Kavdadıq kənd tam orta məktəbində təhsil almışdır. 2008-ci ildə 8-ci sinfi bitirən Zamin Abbasov təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə davam etmişdir. 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. 2015-ci ildə ali hərbi məktəbi tamamladıqdan sonra leytenant rütbəsi ilə "N" saylı hərbi hissədə hərbi vəzifəsinin icrasına başlamışdır. Ermənistan-Azərbaycan şərti sərhədində, ön xətt briqadasında hərbi xidmət etmişdir. Hərbi xidmət zamanı dəfələrlə komandanlıq, xüsusilə şəhid polkovnik, Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidov tərəfindən fəxri fərman və döş nişanları ilə təltif edilmişdir. 2016-cı ilin 1-5 aprel tarixlərində baş tutan Aprel döyüşləri zamanı böyük rəşadət və igidliklə vuruşmuşdur. Hərbi xidmət müddətində baş leytenant rütbəsi almışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan Zamin Abbasov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Zəngilanın, Laçının və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərmişdir. Tabeçiliyində olan hərbçiləri müharibənin sonunadək döyüşlərdən sağ-salamat çıxarmışdır. Müharibədən sonra Zamin Abbasov cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. Vətən müharibəsi bitdikdən sonra Zamin Abbasov hərbi xidmətini davam etdirmişdir. 2021-2022-ci illərdə həyata keçirilən qısamüddətli əməliyyatlar zamanı tabeçiliyində olan hərbi qulluqçularla birgə şücaət göstərərək fərqlənmişdir.

Zamin Abbasov 19 sentyabr 2023-cü ildə Qarabağda silahlanan erməni separatçılarına qarşı rəşadətli Azərbaycan Ordusu tərəfindən başlanan lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş və hərbi əməliyyatlarda böyük igidlik göstərmişdir. Zamin Abbasov 19 sentyabr 2023-cü ildə Xocavənd rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən snayperindən açılan atəş nəticəsində qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Nəşi 22 sentyabr 2023-cü ildə Sumqayıt Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Zamin Abbasov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## ABBASZADƏ EMİN FAİQ OĞLU



Şəhid gizir Emin Faiq oğlu Abbaszadə 15 may 1998-ci ildə Tərtər rayonunun Kəngərli kəndində anadan olmuşdur. Emin Abbaszadə orta təhsilini aldıqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tərtər rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində hərbi xidmətinə başlamışdır. Orduda bacarıqlı əsgər kimi xidmət edən Emin çalışqanlığı ilə hər zaman əsgər yoldaşlarından seçilmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Emin Abbaszadə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Müharibə zamanı torpaqlarımızın azad edilməsi yolunda əlindən gələni əsirgəməmiş, böyük igidlik nümayiş etdirmişdir. Vətən müharibəsi bitdikdən sonra əsgər Emin Abbaszadə cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir. Müharibədən sonra gizirlik kursuna yazılan Emin bu kursları müvəffəqiyyətlə bitirərək gizir rütbəsi alır və hərbi xidmətini bu rütbədə davam etdirir.

Qəhrəmanımızın qəlbi sonsuz arzu və diləklərlə dolu idi. Belə ki, o, nişanlı idi, 17 sentyabr 2023-cü ildə böyük bir təmtəraqla qız evinin toyu keçirilmişdi. Oğlan toyunun isə 8 oktyabrda keçirilməsi planlaşdırılırdı...

Ancaq mənfur erməni vandallarının törətdiyi təxribatlar buna imkan verməmişdir. Nəticədə, 19 sentyabr 2023-cü ildə düşmənin təxribatlarına dözə bilməyən rəşadətli Azərbaycan Ordusu hərəkətə keçmiş və lokal xarakterli antiterror tədbirlərinə başlamışdır. Gizir Emin Abbaszadə də bu uğurlu əməliyyatlarda iştirak etmiş və qısa bir zamanda düşmənin kabusuna çevrilmişdir. Lakin qəfil gələn namərd gülləsi qəhrəman Eminin həyatına son qoymuşdur. Gizir Emin Abbaszadə 19 sentyabr 2023-cü ildə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Onun nəşi 21 sentyabr 2023-cü ildə torpağa tapşırılmışdır.

Qəhrəmanımızın əmisi oğlu Elşad Rauf oğlu Abbaszadə 25 mart 2016-cı ildə şəhidliyə yüksəlmişdir. Şəhidimiz Emin Abbaszadə də şəhid əmisi oğlunun taleyini yaşadı.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Emin Abbaszadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**(Davamı var)**

**SEVİNDİK NƏSİBOĞLU**
***11-ci sinif şagirdi, şair-publisist, AJB üzvü***



***(İstifadə edilmiş mənbələr: oxu.az, report.az, qafqazinfo.az, unudulmazlar.az)***